ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 8

Ad________________ Soyad________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2024-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!
24.12.2023

**1**. Miqyası 1: 800 000 olan xəritədə təsvir edilmiş coğrafi obyekt 48 paletka damasını tutur. Obyektin həqiqi sahəsini müəyyən edin.

A) 960 km$^2$
B) 384 km$^2$
C) 3072 km$^2$
D) 768 km$^2$
E) 664 km$^2$

**2**. Cədvələ əsasən, doğru sıraları müəyyən edin.

| № | Litosfer tavası | Litosfer tavası | Sərhədlərində yerləşən adalar |
|---|---|---|---|
| 1 | Naska | Kokos | Qalapaqos |
| 2 | Şimali Amerika | Avrasiya | İslandiya |
| 3 | Cənubi Amerika | Afrika | Folklend |
| 4 | Sakit Okean | Hind-Avstraliya | Fici |
| 5 | Hind-Avstraliya | Antarktida | Tasmaniya |
| 6 | Afrika | Şimali Amerika | Kanar |

A) 1, 2, 5 B) 1, 2, 4 C) 2, 3, 5
D) 1, 4, 6 E) 3, 4, 6

**3**. Cədvələ əsasən müvafiq saat qurşaqlarına aid olan doğru fikirləri müəyyən edin.

| **VI saat qurşağı** | **XV saat qurşağı** |
|---|---|
| 1. Üç yarımkürədə yerləşir və orta meridianı Sakit okeanla kəsişmir. | 4. Üç yarımkürədə yerləşir və iki okeanla kəsişir. |
| 2. Şərq yarımkürəsində yerləşir və qərb sərhədi ilə Bakı şəhəri arasındakı yerli vaxt fərqi 120 dəqiqədir. | 5. Orta meridianının keçdiyi materiklərin yalnız birində günəş zenitdə olur. |
| 3. Orta meridianı ən uzun meridian hesab edilir. | 6. Şərq və qərb sərhədləri arasındakı yerli vaxt fərqi 80 dəqiqədir. |

A) 2, 3, 6 B) 1, 3, 5 C) 2, 4, 5
D) 2, 4, 6 E) 1, 4, 5

**4**. Horizontal-sxem vasitəsi ilə təsvir edilmiş relyef formasınıda K və L məntəqələri arasındakı temperatur fərqi 2,4°C olarsa, kəsmə yüksəkliyinin neçə metr olduğunu müəyyən edin.




A) 100 B) 200 C) 80 D) 125 E) 150

**5.** Xəritəyə əsasən hansı vizual təhlili aparmaq olar?




1. atmosfer təzyiqi
2. okean suyunun duzluluğu
3. buludluluq
4. havanın temperaturu
5. süxurların yaşı
6. təbii zonalar

A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 3, 4
D) 2, 4, 6 E) 4, 5, 6

**6**. Millli-etnik əlamətlərə görə formalaşan federativ ölkələri seçin.
A) ABŞ, Kanada, İsveçrə
B) Rusiya, Nigeriya, Hindistan
C) Çin, Hindistan, Argentina
D) Nigeriya, Kanada, Avstraliya
E) Rusiya, Avstriya, Hindistan

**7.** Temperaturu 0°C olan havanın nisbi rütubətliliyi 90%-dir. Havanın temperaturu 10°C-yə yüksələrsə bu temperaturda nisbi rütubətlilik neçə faiz olar?
(Nəzərə alın ki, 0°C-də 1 $m^3$ havanın doyması üçün 5 q, 10°C-də isə 9 q su buxarı tələb olunur)
A) 60% B) 40% C) 100%
D) 50% E) 45%

**8.** Cədvələ əsasən düzgün olan sıraları müəyyən edin.

| № | Düzənlik | Mənşəyi | Tektonik vəziyyəti | Yerləşdiyi yarımkürələr |
|---|---|---|---|---|
| 1 | Amazon | akkumulyativ | geosinklinal | Şimal, Şərq, Qərb |
| 2 | Pataqoniya | denudasion | platforma | Şimal, Qərb |
| 3 | Padan | akkumulyativ | geosinklinal | Şimal və Şərq |
| 4 | La-Plata | akkumulyativ | platforma | Cənub, Şərq |
| 5 | Qərbi Sibir | akkumulyativ | platforma | Şimal, Şərq |
| 6 | Böyük Hövzə | denudasion | geosinklinal | Şimal, Qərb |

A) 1, 3, 4
B) 2, 3, 4
C) 1, 5, 6
D) 1, 2, 5
E) 3, 5, 6

**9**. Əgər Yer kürəsi 1 saatda 18° dönsəydi Bakı şəhəri hansı saat qurşağında yerləşərdi?
A) V B) II C) IV D) III E) VI

**10.** Düzgün fikirləri müəyyən edin.
1. Ölkəmizdə mövcud olan mis ehtiyatları Gədəbəy və Kəlbəcər inzibati rayonlarında yerləşir.
2. Şahdəniz və Ümid yataqlarından təbii qaz hasil edilir.
3. Naxçıvandakı Parağaçay yatağında polimetal hasil edilir.
4. Laçın inzibati rayonunda Zəylik alunit yatağı yerləşir.
5. Daşkəsəndə mərmər yatağı yerləşir.
6. Mehmanə qeyri-filiz faydalı qazıntı yatağıdır.
A) 1, 4, 6 B) 2, 3, 5 C) 1, 2, 5 D) 2, 4, 5 E) 1, 2, 3

**11.** Cədvələ əsasən, uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Barxan təpələri oraq formasında olur, külək tutan yamacı az meyilli, külək tutmayan yamacı isə dik olur. | *doğru* |
| 2 | Karst mağaraları eol relyef formalarından hesab edilir. | *doğru* |
| 3 | Buzlaqların dağıdıcı fəaliyyəti ekzarasiya adlanır. | *yanlış* |
| 4 | Ekzogen proseslərin fəaliyyəti ilə yaranan relyef formalarına morfoskulptur deyilir. | *yanlış* |
| 5 | Qırmızı-sarı ferralit torpaqların yayıldığı ərazilərdə fiziki aşınma daha sürətli baş verir. | *yanlış* |

A) 1, 5
B) 1, 3
C) 2, 3
D) 4, 5
E) 2, 4

**12**. Subekvatorial iqlim qurşağında yerləşən yarımadaları müəyyən edin.
A) Keyp-York və Yutlandiya
B) Hindistan və Yukatan
C) Florida və Kaliforniya
D) Hind-Çin və Koreya
E) Somali və Arnemlend

**13.** Subtropik iqlim qurşağında hakim olan hava kütlələri:
A) mülayim və subekvatorial
B) arktik və ekvatorial
C) tropik və mülayim
D) tropik və subarktik
E) ekvatorial və tropik

**14**. Hansı inzibati rayonda yarımsəhra və quru çöl, mülayim isti, soyuq və dağ tundra iqlim tiplərinə rast gəlmək olar?
A) Cəlilabad
B) Kəlbəcər
C) Ordubad
D) Şəki
E) Zaqatala

**15.** Bir inzibati rayonla, lakin iki xarici ölkə ilə həmsərhəd olan inzibati rayonları müəyyən edin.
A) Ordubad, Şahbuz, Şərur
B) Sədərək, Zəngilan, Şahbuz
C) Qazax, Ağstafa, Zaqatala
D) Balakən, Qazax, Ordubad
E) Qax, Culfa, Tovuz

**16**. Böyük Britaniya və Fransa arasındakı tunel hansı boğazın altından çəkilmişdir?
A) Skagerrak
B) La-Manş
C) Cəbəlüttariq
D) Kerç
E) Polk

**17.** Aşağıda verilmiş çaylara aid doğru fikirləri müəyyən edin.
1. Kür
2. Araz
3. Qanıx
4. Tərtər
5. Samur

| | | |
|---|---|---|
| I | 3, 5 | İki ölkə ərazisindən axırlar. |
| II | 2, 4 | Eroziya bazisi fərqli çaylardır. |
| III | 1, 2 | Mənbələri eyni ölkədə yerləşir. |
| IV | 1, 5 | Mənbələrinin mütləq hündürlüyü eynidir. |
| V | 3, 4 | Eyni inzibati rayonların ərazilərindən axırlar. |
| VI | 2, 5 | Mənsəbləri Dünya okeanı səviyyəsindən aşağıda yerləşir. |

A) I, III, VI
B) II, IV, V
C) I, II, III
D) III, IV, V
E) II, III, VI

**18.** Cədvələ əsasən doğru bəndi müəyyən edin.

| Daxili dəniz | Kənar dəniz | Adalararası dəniz |
|---|---|---|
| 1. Baltik | 4. Oxot | 7. Karib |
| 2. Berinq | 5. Sulavesi | 8. Filippin |
| 3. Norveç | 6. Qırmızı | 9. Fici |

A) 1, 4, 8, 9
B) 2, 3, 5, 7
C) 6, 7, 8 ,9
D) 1, 2, 5, 8
E) 4, 5, 6, 7

**19.** Uyğunluğu müəyyən edin.

| | Ada və ya arxipelaq | Mənşəyi | Aid olduğu ölkə |
|---|---|---|---|
| A) | Tasmaniya | vulkanik | Avstraliya |
| B) | Havay | vulkanik | Yaponiya |
| C) | Sumatra | materik | İndoneziya |
| D) | Böyük sədd rifi | mərcan | Yeni Zelandiya |
| E) | Şri-Lanka | vulkanik | Şri-Lanka |

**20.** Afrika materikinin düzənlik ərazilərində rast ***gəlinməyən*** torpaq tipləri:
A) tundra-qleyli, qırmızı-sarı ferralit, qonur
B) boz, qırmızı-qonur, qəhvəyi
C) ibtidai, podzol (küləçalan), boz-qonur
D) podzol (küləçalan), qara, tundra-qleyli
E) qara, şabalıdı, boz

**21.** Yer kürəsinin sxemdəki vəziyyətlərini nəzərə alaraq, cədvəldəki uyğunluğu müəyyən edin.

|   |   |
|---|---|
| 1. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Madaqaskarda gündüzün uzunluğu azalmağa başlayır.<br>2. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Şimal yarımkürəsi daha çox işıq alacaq.<br>3. Bu tarixdə günorta vaxtı London şəhərində günəş şüalarının maksimum düşmə bucağı müşahidə edilir. | 4. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Bakı şəhərində gündüzlərin uzunluqları artmağa başlayır.<br>5. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Cənub tropik xəttindən cənubda qalan məntəqələrdə yerləşən şaquli cisimlərin günorta vaxtı kölgə uzunluqları artacaq.<br>6. Bu tarixdə günorta vaxtı 45° şimal enliyinə günəş şüaları 23,5° bucaq altında düşür. |

A) 3, 4, 5  B) 1, 2, 5  C) 1, 2, 6
D) 1, 3, 6  E) 2, 4, 6

**22**.  Cənub-Qərbi Asiya regionunda yerləşən ölkələr:
A) Küveyt, Pakistan, Türkmənistan
B) Türkiyə, Suriya, Banqladeş
C) İran, İraq, Özbəkistan
D) Yəmən, Oman, Nepal
E) İsrail, İordaniya, BƏƏ

**23**. Respublikamızın iqtisadi rayonları üçün doğru fikirləri müəyyən edin.
1. Şərqi Zəngəzur iqtisadi rayonu iki xarici ölkə ilə həmsərhəddir.
2. Gəncə-Daşkəsən iqtisadi rayonunda alunit ehtiyatları mövcuddur.
3. Mərkəzi Aran və Qazax-Tovuz iqtisadi rayonlarının hər ikisindən Kür və Araz çayları axır.
4. Respublikamızın şimal ucqar nöqtəsi Şəki-Zaqatala iqtisadi rayonunda yerləşir.
5. Mil-Muğan iqtisadi rayonu heç bir xarici ölkə ilə həmsərhəd deyil.
A) 2, 3, 5 B) 1, 2, 5 C) 3, 4, 5
D) 1, 3, 4 E) 1, 2, 4

**24**. Faydalı qazıntıları çıxararkən lazımsız süxur qalıqlarının təpələr şəklində qalaqlanaraq yığılması adlanır:
A) biosenoz
B) terrikon
C) plankton
D) nekton
E) bentos

**25**. ECO (İqtisadi Əməkdaşlıq Təşkilatı) hansı ölkələr tərəfindən yaradılmışdır?
A) Qazaxıstan, Rumıniya, Moldova
B) Rusiya, Türkiyə, Gürcüstan
C) Pakistan, İran, Türkiyə
D) Ukrayna, Bolqarıstan, Macarıstan
E) İran, İraq, Suriya